Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "İncəsənət" fakültəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**Cəmilə İsmayıl qızı Həsənova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Sevda Firuddin qızı Qurbanəliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Jalə Elman qızı Qulamova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xatirə Nəriman qızı Həsənzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: ____________ sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: ____________ sənətşünaslıq doktoru, professor
**İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

- bəstəkarın yaradıcılığının bütün sahələrinin: musiqili-səhnə, kamera-instrumental, vokal, simfonik orkestr üçün və xalq çalğı alətləri orkestri üçün əsərlərinin araşdırılması, bu prosesdə onun əsərlərinin musiqi dilinin xüsusiyyətlərinin təhlil edilməsi;

- N.Məmmədovun etnomusiqişünaslıq fəaliyyəti, muğamların, xalq mahnı və rəqslərinin nota yazılması və tədqiqi sahəsində fəaliyyətinin araşdırılması;

- bəstəkarın özünəməxsus yaradıcılıq xüsusiyyətlərinin və dəst-xəttinin aşkarlanması və elmi-nəzəri səviyyədə ümumiləşdirilməsindən ibarətdir.

**Tədqiqat metodları.** Dissertasiyanın metodoloji əsasını musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Elmi tədqiqatın nəzəri-metodoloji əsası sırf milli dünyagörüşünə söykənən, eyni zamanda, ümumbəşəri dəyərlərlə sıx əlaqədə olan baxışlar və nəzəri fikirlərlə bağlıdır. Bu kontekstdə elmi idrakın induktiv və deduktiv metodlarından istifadə etməklə nəzərdə tutulan problemi hərtərəfli araşdırıb, düzgün elmi qənaətlər formalaşdırmağa çalışmışıq. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** apardığımız tədqiqatın əsas istiqamətləri ilə bağlıdır. Bunların sırasında:

- Bəstəkar Nəriman Məmmədovun həyat və yaradıcılıq yolunun mərhələlərinin səciyyələndirilməsi;

- N.Məmmədovun etnomusiqişünaslıq sahəsində fəaliyyətinin araşdırılması;

- N.Məmmədovun simfonik yaradıcılığında musiqi dilinin xüsusiyyətlərinin xarakterizə olunması, simfoniyaların, instrumental konsertlərin təhlili;

- N.Məmmədovun musiqili-səhnə və vokal-instrumental əsərlərinin təhlili əsasında “Humay” baletinin və vokal-instrumental əsərlərinin musiqi dilinin əsas xüsusiyyətlərinin üzə çıxarılıması kimi məsələlər qeyd olunmalıdır.

**Tədqiqatın elmi yeniliyi.** N.Məmmədovun yaradıcılığı bu günə qədər elmi-nəzəri tədqiqat səviyyəsində araşdırılmamışdır. Müraciət etdiyimiz mövzu, ilk dəfə olaraq, N.Məmmədovun

yaradıcılığının dissertasiya səviyyəsində öyrənilməsinə həsr olunmuşdur və işin elmi yeniliyinin əsas göstəricisidir.

Dissertasiyanın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, Nəriman Məmmədovun yaradıcılığı hərtərəfli tədqiq edilmiş, əsərlərinin musiqi dili və bəstəkarın üslub xüsusiyyətləri açıqlanmışdır. N.Məmmədovun musiqişünaslıqda öyrənilməmiş bir sıra əsərləri ilk dəfə olaraq tədqiqata cəlb olunmuşdur.

Bəstəkarın müxtəlif janrlı instrumental və vokal əsərləri təhlil edilmiş, onun yaradıcılığının mövzu dairəsi, janr xüsusiyyətləri, musiqi dili ilə bağlı tapıntılar, onun xalq musiqisinə və muğama yaradıcı münasibəti, bunun nəticəsində meydana gələn yeni cəhətlər üzə çıxarılmışdır. Azərbaycan xalq musiqisindən istifadə prinsiplərinin bəstəkarın musiqi dilinə təsiri nəticəsində musiqi üslubunun formalaşmasında rolu araşdırılaraq üzə çıxarılmışdır.

Nəriman Məmmədovun müxtəlif janrlarda yazdığı əsərlərinin bədii keyfiyyətləri, onun yenilik axtarışları, xalq musiqisi və muğam ənənələrindən bəhrələnməsi sayəsində yaranan musiqi dilinin xüsusiyyətlərinin araşdırılması, etnomusiqişünaslıq sahəsində fəaliyyətinin tədqiqi ilk dəfə olaraq, dissertasiya işi səviyyəsində həyata keçirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Xüsusilə ali və orta ixtisas məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi", habelə incəsənət sahəsini əhatə edən digər fənlərin tədrisində faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı çıxışlarında, AAK tərəfindən tövsiyə edilmiş nəşrlərdə - yerli və xarici elmi məcuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

Bunlardan: Humanities science current issues. İnteruniversity collection of Drohobych İvan Franko State pedagogical University young scientists research papers. Drohobych 2020, İssue 30. Volume 1; "Musiqi dünyası" Beynəlxalq, elmi-pedaqoji, tənqidi-publisistik və mədəni-maarif jurnalında, "Harmony" beynəlxalq musiqi-

kulturoloji jurnalında, Naxçıvan Elmlər Akademiyasının elmi nəşrində çap olunmuş məqalələri göstərmək olar. Həmçinin, bir sıra beynəlxalq və respublika elmi konfransların materiallarını qeyd etməliyik.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin "İncəsənət" fakültəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, altı paraqraf, nəticə və istifadə edilmiş siyahıdan ibarətdir. Giriş 11 səhifə olmaqla 15936 işarədən, I fəsil 32 səhifə olmaqla 56140 işarədən, II fəsil 57 səhifə olmaqla 61648 işarədən, III fəsil 56 səhifə olmaqla 60538 işarədən, nəticə 5 səhifə olmaqla 9040 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi İstifadə edilmiş ədəbiyyat istisna olmaqla ümumilikdə 203302 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Nəriman Məmmədovun yaradıcılığının ümumi səciyyəsi" adlanır.** Bu fəsil iki paraqrafdan ibarətdir. **I fəslin birinci paraqrafında – 1.1. "Nəriman Məmmədovun həyat və yaradıcılıq yolunun mərhələləri" nəzərdən keçirilir.**

Nəriman Məmmədov 1928-ci ildə qədim tarixə və musiqi ənənələrinə malik Naxçıvan şəhərində anadan olmuşdur. Məlum olduğu kimi, dünyanın ən qədim insam məskənlərindən biri kimi tanınmış Naxçıvan mədəniyyət, memarlıq və incəsənət sahələrinə öz təhfələrini vermişdir. Naxçıvan bir çox görkəmli tarixi şəxsiyyətlərin, şair və yazıçıların, elm, mədəniyyət və incəsənət xadimlərinin vətənidir. Naxçıvan torpağı özünün yallıları, xalq mahnıları, aşıq havaları, xalq çalğı alətləri, musiqi ifaçıları ilə tanınmışdır.

N.Məmmədov ilk musiqi təhsilini Naxçıvan musiqi məktəbində tar sinfində almışdır. Burada o, həm də musiqi nəzəriyyəsi fənnini dərindən mənimsəməyə çalışır. Bu iki sahə onun peşəkar musiqiçi kimi formalaşmasında əhəmiyyətli rol oynayır.

N.Məmmədovun sonrakı təhsil dövrü Bakı ilə bağlı olmuşdur. O, Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda iki şöbədə – xalq çalğı alətləri ifaçılığı və nəzəriyyə şöbəsində təhsil alır. Burada o, görkəmli tarzən-pedaqoq Əhməd Bakıxanovun muğam sinfində Azərbaycan muğamlarını mükəmməl öyrənir. Bu da onun yaradıcılığına mühüm təsir göstərir.

O, həmçinin, tar ixtisasından not fənnini görkəmli tarzən-pedaqoq Adil Gəray Məmmədbəylinin sinfində keçir. 1950-ci illərin əvvəllərində N.Məmmədov tar ifaçısı kimi fəaliyyət göstərir. Bəstəkar o dövrdə tarın texniki imkanlarını, muğamın incəliklərini mənimsəmiş və öz əsərlərində təcəssüm etdirə bilmişdir.

Texnikumda oxuduğu illərdə o, həm də bəstəkarlıqla çox maraqlanırdı və onun xalq çalğı alətləri orkestrinə marağı özünü büruzə verir. Onun musiqi texnikumunda təhsil alarkən bəstələdiyi ilk əsəri - xalq çalğı alətləri orkestri üçün Süita görkəmli bəstəkar və dirijor Səid Rüstəmovun rəhbərliyi ilə Azərbaycan Televiziyası və Radiosunun xalq çalğı alətləri orkestri tərəfindən müvəffəqiyyətlə ifa olunmuşdur.

N.Məmmədovun təhsil illərinin növbəti mərhələsi Azərbaycan Dövlət Konservatoriyası ilə bağlıdır. N.Məmmədov burada iki ixtisas üzrə – musiqişünaslıq və bəstəkarlıq üzrə təhsil almışdır. Musiqişünaslıq üzrə isə görkəmli musiqişünas-pedaqoqlardan – N.Çumakovdan, L.Karagiçevadan dərs almışdır. Bəstəkarlıq üzrə onun müəllimi böyük bəstəkar Cövdət Hacıyev olmuşdur. Bu pedaqoqların onun professional musiqişünas və bəstəkar kimi formalaşmasında və yaradıcılığında böyük rolu olmuşdur. Bu da onun həm dünyagörüşünün genişliyini, həm də musiqi üslubunun təkmilləşməsini təmin etmişdir. N.Məmmədov 1956-cı ildə Konservatoriyanın tarix-nəzəriyyə şöbəsini, 1961-ci ildə bəstəkarlıq şöbəsini bitirmişdir.

Konservatoriyanı bitirdikdən sonra o, bəstəkar və musiqişünas kimi səmərəli fəaliyyət göstərir. Böyük həvəslə və yaradıcılıq

“Komsomol” simfonik poeması (1962), Nizaminin “Fərhad və Şirin” poemasının mövzuları əsasında yazılmış eyniadlı simfonik poema (1980), həmçinin, Simfonik poema (1979), “Nağıl” simfonik poeması timsalında bunu izləyə bilərik.

Bəstəkarın iri həcmli instrumental əsərləri sırasında konsertləri qeyd etməliyik. O, dörd fortepiano ilə simfonik orkestr üçün, həmçinin fleyta ilə simfonik orkestr üçün, tar ilə simfonik orkestr üçün, skripka ilə orkestr üçün konsertlərin müəllifidir.

Bunlardan Fortepiano ilə simfonik orkestr üçün 1 saylı Konsert 1964-cü ildə bəstələnmişdir. Bu əsər ilk dəfə pianoçu R.Şifrin tərəfindən, dirijor Ç.Hacıbəyovun rəhbərliyi altında, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiətilə ifa olunmuşdur. Konsert həmçinin Moskvada, solist R.Şifrin və Ümumittifaq Televiziyası və Radiosu Böyük simfonik orkestri tərəfindən səsləndirilmişdir.

Fortepiano ilə simfonik orkestr üçün 2 saylı Konsert 1973-cü ildə meydana gəlmişdir. Əsər ilk dəfə Azərbaycan bəstəkarlarının IV qurultayında səsləndirilmişdir. İfaçılar – Ü.Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestri, dirijor R.Abdullayev, solist R.Şifrin. Konsert 1975-ci ildə “Zaqafqaziya musiqi baharı” festivalının simfonik konsertlərinin proqramına daxil edilmişdir. Birinci və ikinci konsertlərin səsyazısı Moskva radiosunun fondunda saxlanılır.

Tar ilə simfonik orkestr üçün konsert 1983-cü ildə yazılmışdır. Əsərin ilk ifaçısı görkəmli tarzən, xalq artisti, professor Ramiz Quliyev olmuşdur. Bəstəkar bu əsəri R.Quliyevə həsr etmişdir.

N.Məmmədov öz yaradıcılığında iri həcmli vokal-instrumental musiqi janrlarına da müraciət etmişdir. Bunlardan bir qismi solistlər xor və simfonik orkestr üçün, bir qismi isə solistlər, xor və xalq çalğı alətləri orkestri üçün bəstələnib və oratoriya, kantata, süita janrlarını əhatə edir.

Solistlər, xor və xalq çalğı alətləri orkestri üçün bir sıra vokal-instrumental əsərlərini bəstəkar süita janrında bəstələmişdir. “Naxçıvan” vokal-instrumental süitası (İ.Səfərlinin sözlərinə, 1964), “Araz üstündə Çənlibel qalası” vokal-instrumental süitası (H.Razinin

sözlərinə, 1973), solistlər və xalq çalğı alətləri orkestri üçün “Dəstgah” vokal-instrumental kompozisiyası (1977) bu qəbildəndir.

Bununla yanaşı, N.Məmmədov xalq çalğı alətləri orkestri üçün üç süita (birinci süita – 1957, ikinci süita – 1961, üçüncü süita – 1965), “Simfoniyetta” (1972) və “Zərbi-muğam” süitasını (1978) bəstələmişdir. Bütün bu əsərlər Azərbaycan Televiziyası və Radiosunun Azərbaycan xalq çalğı alətləri orkestri tərəfindən konsertlərdə səsləndirilmişdir.

Nəriman Məmmədov həmçinin kamera orkestri üçün pyeslər və instrumental əsərlər - kvartet, trio və sonata bəstələmişdir. Kamera orkestri üçün iki kapris (1965), orqan üçün Sonata “Muğam və rəng” (1974), Üzeyir Hacıbəylinin xatirəsinə trio - skripka, violonçel və fortepiano üçün (1975), Trio üçün Sonata (violonçel, fortepiano, fleyta, 1980), skripkaçılar ansamblı üçün dörd pyes (1980-1981), “Tokkato” və “Skertso” (1980) musiqi ifaçılarının və musiqi kollektivlərinin repertuarına daxil olmuşdur.

N.Məmmədovun yaradıcılıq irsində musiqili-səhnə əsərləri layiqli yer tutur. O, iki baletin, beş musiqili komediyanın, dram tamaşalarına yazılmış musiqinin müəllifidir.

N.Məmmədovun “Humay” baleti 1981-ci ildə Azərbaycan Dövlət Opera və Balet teatrında səhnə təcəssümü tapmışdır. Bu balet böyük Azərbaycan şairi Səməd Vurğunun “Komsomol poeması”nın motivləri əsasında yazılmışdır. Baletin libretto müəllifləri K.Bataşov və A.Asaturyandır. İlk tamaşada quruluşçu baletmeyster A.Asaturyan, dirijor R.Abdullayev, rəssam Ə.Almaszadə, rollarda: Humay – L.Letyagina, Cəlal – R.Qriqoryan, Bəxtiyar – V.Axundov, Gəray bəy – R.Arifullin və b. çıxış etmişlər.

Nəriman Məmmədov ömrünün son illərində Hüseyn Cavidin əsərinin motivləri əsasında “Şeyx Sənan” baleti üzərində işini başa çatdırmışdı.

N.Məmmədovun musiqili-səhnə əsərləri sırasında onun musiqili komediyalarını da qeyd etməliyik. O, T.Bakıxanovla birlikdə üç musiqili komediya bəstələmişdir. Bunlar “Altı qızın biri Pəri” (librettosu Ə.Əlizadənindir, 1964), “Məmmədəli kurorta gedir” (librettosu A.Babayevindir, 1969), “Qız görüşə tələsir” (librettosu A.Babayevindir, 1978) musiqili komediyalarıdır. Bu musiqili

komediyalar müxtəlif illərdə Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında böyük uğurla səhnəyə qoyulmuşdur. Bəstəkarın daha iki musiqili komediyası – "Olacağa çarə yoxdur" və "Pasport" ömrünün son illərinə aiddir.

Qeyd etmək lazımdır ki, bəstəkar Bakıda, Naxçıvanda, Sumqayıtda, Ağdamda səhnələşdirilmiş bir sıra dram tamaşalarına da musiqi yazmışdır.

N.Məmmədovun yaradıcılıq irsinin mühüm bir hissəsini vokal əsərləri - mahnı və romanslar təşkil edir. O, bütün yaradıcılığı boyu mahnı janrına müraciət etmiş, 300-dən artıq rəngarəng məzmunlu, gözəl mahnı və romanslar bəstələmişdir. Bunlardan bir çoxu respublika müsabiqələrində müxtəlif mükafatlara layiq görülmüşdür. Onun "Sirab" (sözləri Hüseyn Razinindir), "Təzəcə gəlinsən" (sözləri Tofiq Mütəllibovundur), "Nazlı yar" (sözləri Rəfiq Zəkanındır), "Naxçıvandadır" (sözləri Mədinə Gülgünündür), "Gözəlləşsin şəhərimiz" (söz. Atif Zeynallının), "Üzmə məni" (söz. İslam Səfərlinin) və s. mahnıları xalqımızın sevə-sevə dinlədikləri mahnılardandır. Bəstəkarın mahnıları maraqlı musiqi dili, zəngin melodikası, rəngarəng ritmikası ilə diqqəti cəlb edir.

Görkəmli bəstəkarın yaradıcılıq irsi, onun Azərbaycan musiqisinin və musiqişünaslığın inkişafındakı xidmətləri Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Xalq artisti, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi kimi yüksək fəxri adlara layiq görülmüşdür. Uzun müddət Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda elmi işçi, Bakı Musiqi Akademiyasında müəllim kimi çalışmış, professor elmi adını almışdır. O, həmçinin, bir sıra fəxri fərmanlarla təltif olunmuşdur.

N.Məmmədov 2015-ci il aprelin 7-də vəfat etmiş və Bakıda II Fəxri xiyabanda dəfn olunmuşdur [3; 6].

**Dissertasiyanın I fəslinin ikinci paraqrafı – 1.2. "Nəriman Məmmədovun etnomusiqişünaslıq fəaliyyəti" adlanır.** N.Məmmədovun yaradıcılığını xarakterizə edərkən, onun etnomusiqişünaslıq sahəsindəki fəaliyyətinə, bunun bəstəkarlıq üslubuna təsiri məsələlərinə, fəaliyyət sahələrinin qarşılıqlı əlaqəsinə diqqət yetirmişik. N.Məmmədovun etnomusiqişünaslıq fəaliyyətini

iki istiqamətdə səciyyələndirə bilərik. Birincisi, muğamların nota salınması və tədqiqi, ikincisi, xalq mahnı və rəqslərinin nota salınması və tədqiqi.

Azərbaycanda şifahi ənənəli musiqi irsinin toplanması və notlaşdırılmasının 1950-80-ci illər mərhələsində N.Məmmədovun xidmətləri diqqətəlayiqdir.

N.Məmmədovun xalq mahnı və rəqslərinin toplanması və yazıya alınması sahəsindəki fəaliyyəti Azərbaycan Elmlər Akademiyası tərəfindən təşkil olunan folklor ekspedisiyaları ilə bağlı olmuşdur. Nəriman Məmmədovun sənətşünaslıq doktoru, professor Əhməd İsazadə ilə birlikdə respublikanın müxtəlif guşələrində topladığı nümunələr "Xalq mahnıları və oyun havaları" (1975), "Azərbaycan xalq mahnıları və oyun havaları" (1984) məcmuələrində çap olunub. Folklor ekspedisiyalarının nəticəsi olaraq, N.Məmmədov Ə.İsazadə ilə birlikdə not yazılarını çap etdirməklə yanaşı, elmi yığıncaqlarda məruzələrini təqdim etmişlər[8].

Nəriman Məmmədov muğamlarımızın nota yazılmasında çox işlər görmüşdür. N.Məmmədovun not yazısında çap olunmuş muğamlar: "Çahargah" və "Hümayun" (Bakı, 1962), "Bayatı-Şiraz" və "Şur" (Moskva, 1962), "Rast" və "Şahnaz" (Bakı, 1963), "Segah-Zabul" və "Rəhab" (Bakı, 1965) instrumental şəkildə, "Çahargah" (Moskva, 1970), "Rast" (Moskva, 1978) vokal-instrumental şəkildə not yazılarıdır. Lakin N.Məmmədov instrumental muğamların not yazılarına da bir sıra təsnif və rəngləri daxil etmişdir.

Bunlardan instrumental muğamlar – "Bayatı-Şiraz", "Şur", "Rast", "Çahargah", "Humayun", "Segah-zabul", "Şahnaz" və "Rahab" muğamları tarzən Əhməd Bakıxanovun ifasından nota yazılmışdır. Vokal-instrumental dəstgah formasında "Rast" və "Çahargah" muğamlarının partituraları tarzən Bəhram Mansurovun və xanəndə Hacıbaba Hüseynovun, Yaqub Məmmədovun ifasından notlaşdırılıb. Təsnif və rənglərin nota salınmasında tarzən Həbib Bayramovun, xanəndələr Yaqub Məmmədov, İslam Rzayev və Əlibaba Məmmədovun ifaçılıq təfsirinə də müraciət edilmişdir.

---

[8] Исазаде, А., Мамедов, Н. Композитор и фольклор. // Материалы к сессии, посвященной итогам археодогических и этнографических исследований 1970 года в Азербайджане. – Баку: Элм. – 1971.

Bu muğamlara zəmanəmizin ən görkəmli sənətkarları Qara Qarayev, Tofiq Quliyev rəylər yazmışlar. Musiqişünas-alim Ramiz Zöhrabov "Azərbaycan muğamının nəzəri problemləri" (1992), "Rast" muğam dəstgahının nəzəri əsasları" (2002), "Çahargah" muğam dəstgahının nəzəri əsasları" (2000) tədqiqat əsərlərində N.Məmmədovun nota yazdığı "Rast" və "Çahargah" vokal-instrumental muğamlarının not yazılarına əsaslanmışdır ki, bu da N.Məmmədovun not yazılarının elmi əhəmiyyətini sübut edir.

N.Məmmədov muğam sənətilə bağlı maraqlı tədqiqatların müəllifidir[9]. Onun bir sıra məqalələri musiqişünas-alim Elmira Abasova ilə həmmüəlliflikIə çap olunmuşdur[10].

Beləliklə, N.Məmmədov bəstəkar olmaqla yanaşı, etnomusiqişünaslıq sahəsində fəaliyyəti ilə musiqi irsimizi zənginləşdirmişdir. Onun muğamların not yazılarını əhatə edən nəşrləri, elmi məqalələri bu gün muğamşünaslığın inkişafında mühüm mərhələ kimi dəyərləndirilir [11; 13].

**Dissertasiyanın II fəsli "N.Məmmədovun simfonik yaradıcılığında musiqi dilinin xüsusiyyətləri" adlanır.** Bu fəsil iki paraqrafdan ibarətdir. **II fəslin birinci paraqrafı – 2.1. "Simfoniyalar"ın təhlilinə həsr olunub.**

N.Məmmədovun simfoniyalarının musiqi dilində diqqəti cəlb edən cəhətlərdən biri onların mövzu dairəsidir. Bu əsərlərdə Birinci simfoniyadan sonuncuya qədər Vətən mövzusu öz planda durur. Hər bir simfoniyasında bu mövzu müxtəlif cəhətlərdən açıqlanır. Məsələn, Birinci simfoniyanın əsas obrazlar dairəsi Vətənin azadlığı uğrunda mübarizədə həlak olmuş qəhrəmanların xatirəsinə həsr olunmuşdur. Əsərin musiqi məzmununda obrazı səciyyələndirən kədərli musiqi aparıcı əhəmiyyətə malikdir. Bu musiqi obrazı əsərin dramaturji inkişaf xəttində mühüm rol oynayır və əsərin hissələrində hər dəfə yeni orkestr tərtibatında özünü göstərir. Bu da bəstəkarın düşüncələri, qəlbinin kədəri kimi səslənir. Bu kimi musiqi obrazları bəstəkarın bütün simfoniyalarında müxtəlif mövzu daxilində,

---

[9] Məmmədov, N.H. Azərbaycan muğamları // Azərbaycan xalq musiqisi. Oçerklər. – Bakı: Elm. – 1981. – s.86-120.

[10] Абасова, Э.А., Мамедов, Н.Г. Мугам и азербайджанский симфонизм. // Музыкальная трибуна Азии. – Москва: Советский композитор – 1975. – с.10-36.

müxtəlif təfsirlərlə verilərək, Yeddinci simfoniyada yüksək zirvəyə çatmışdır.

N.Məmmədovun yaradıcılığında İkinci, Dördüncü və Yeddinci simfoniyalar mərhələ əsərlər kimi diqqətəlayiqdir.

İkinci simfoniyada simli orkestrin tərkibində fortepiano və litavr alətlərindən istifadə olunması ikili əhəmiyyət daşıyır: bir tərəfdən, solist kimi orkestrlə qarşılıqlı əlaqədə çıxış edir, digər tərəfdən, orkestrin tam hüquqlu üzvü kimi musiqinin inkişafında iştirak edir və hər iki halda, əsərin orkestr dilinin zənginliyini, musiqi-dramaturgiyasının hərəkətini təmin edən vasitəyə çevrilir. Bütün bunlar bəstəkarın orkestrləmə və musiqi dili sahəsində yeni tapıntılarına yol açır.

Simfonik silsilədə hissələrin ardıcıllaşması, xarakter və temp göstəriciləri klassik simfonik silsilədən fərqlənir. I hissə – Moderato, Allegro; II hissə – Allegretto; III hissə – Largo. Göründüyü kimi, simfoniyada yekunlaşdırıcı əhəmiyyətə malik olan Final yer almır, bu da ondan irəli gəlir ki, bəstəkarın yaradıcı təxəyyülündə simfonik silsilə üç hissədə yekunlaşdırılır. Əsərin hissələri mövzu baxımından bir-birilə bağlı olub, simfonik inkişafa məruz qalır. Mövzuların işlənilməsində variantlıq, variasiyalılıq prinsipləri aparıcı əhəmiyyətə malikdir. Bu, silsilənin ardıcıllığını, bütövlüyünü təmin etməklə, tematik materialın mənbəyinin muğamla bağlılığını göstərir.

N.Məmmədovun Dördüncü simfoniyası "Qəlbimin səsi" adlanır və görkəmli Azərbaycan şairi Hüseyn Cavidin xatirəsinə həsr olunmuşdur. Dördüncü simfoniyaya proqramlı adın verilməsi bəstəkarın yaradıcılıq təxəyyülü və Hüseyn Cavid yaradıcılığına münasibəti ilə bağlıdır. Simfoniyada Hüseyn Cavidin obrazı onun yaratdıcılığından gələn assosiasiyalarla, yaşadığı dövrün ziddiyyətləri fonunda işıqlandırılmışdır. Simfoniyanın əsasını təşkil edən səciyyəvi konflikt – zəngin daxili aləmə malik şəxsiyyətin dünyanın haqsızlıqlarına etirazı romantik planda öz həllini tapır ki, bu da Hüseyn Cavidin yaradıcılıq qayəsinə uyğundur.

Simfoniya üç hissəlidir, böyük simfonik orkestrin tərkibi üçün nəzərdə tutulmuşdur: I hissə – Allegretto-Moderato, sonato allegrosu; II hissə – Moderato, üçhissəli formada; III hissə – Allegro, variasiya formasına əsaslanır. Simfonik silsilədə hissələrin sayı və

ardıcıllığı klassik təfsirdən kənara çıxır ki, bu da N.Məmmədovun simfoniyalarında özünü göstərən səciyyəvi haldır. Simfoniyanın hissələrinin forma quruluşu klassik qanunauyğunluqlar çərçivəsindədir, bununla belə, kompozisiya daxilində, mövzuların quruluşunda muğamın inkişaf xüsusiyyətlərinə xas olan cəhətlər özünü göstərir. Mövzuların bir özəkdən yetişməsi, melodik, ritmik, struktur, faktura, orkestr yazısı və s. cəhətlərdən variantlı – variasiyalı dəyişilmələrə uğraması, bunun nəticəsində əmələ gələn mərhələlərlə dalğavari inkişaf qeyd olunmalıdır.

N.Məmmədovun "Xocalı şəhidlərinə" adlanan Yeddinci simfoniyası XX əsrin sonunda baş vermiş Azərbaycan tarixinin ən qanlı hadisələrindən birinə – Xocalı soyqırımının qurbanlarının xatirəsinə həsr olunmuşdur. N.Məmmədovun Yeddinci simfoniyasında musiqinin məzmunu həyati münaqişəli vəziyyətlərlə, dinamik səhnələrlə, xarakterlərlə, hadisələrin mahiyyətinə varmaq cəhdi ilə səhnə dramına yaxındır. Əsərin əsas qəhrəmanı xalqdır. Onun mübarizə və qələbə yolu, ziddiyyətli obrazların emosionallığının kəskinləşməsi, xüsusi təsir qüvvəsi bir çox hallarda musiqinin xarakterinə romantikləşmə əlaməti verir ki, bu da bəstəkarın digər simfonik əsərlərində də təzahür edir.Bəstəkar dörd hissəli kompozisiya daxilində simfonik silsilənin ənənəvi hissələrini özünəməxsus surətdə şərh edərək, onları əsərin vahid dramaturji xəttində birləşdirmişdir. Simfoniyanın hissələri: I hissə – Largo; II hissə - Allegretto; III hissə – Moderato; IV hissə – Allegro ansioso.

Yeddinci simfoniyanın musiqisi böyük ifadə gücünə və konkret obrazlılığa malikdir ki, bu da onun əsərlərinin geniş anlamda proqramlığı haqqında danışmağa imkan verir. Yaradıcı və dağıdıcı qüvvələrin, qəhrəmanlıq və mübarizə, onun qurbanlarının doğurduğu kədər, humanizmin böyük və məğlubedilməz gücü, çətinlik və qələbənin sevinci N.Məmmədovun simfoniyasının musiqisində hadisələrin inkişaf mənzərəsini əks etdirir. Müasirliyin qızğın problemlərinin təcəssümündə, onların geniş fəlsəfi anlamında bəstəkar simfonizmin münaqişəli-dramatik xəttinə meyl edir [1; 5].

**Dissertasiyanın II fəslinin ikinci paraqrafı – 2.2. "N.Məmmədovun instrumental konsertləri və proqramlı simfonik əsərləri"nin təhlilinə həsr olunub.** N.Məmmədovun

yaradıcılığında müxtəlif solo musiqi alətləri – fortepiano, tar, fleyta, skripka və simfonik orkestr üçün konsert janrı mühüm yer tutur. Bütün konsertlər klassik formalı üç hissədən ibarət əsərlərdir. Müəllif burada əsasən klassik sonata alleqrosu, rondo və üçhissəli formalardan istifadə edərək, maraqlı kompozisiyalar yaratmağa nail olmuşdur.

Konsert janrının əsas xüsusiyyəti solistlə orkestrin "yarışı"ndan ibarətdir ki, bu da N.Məmmədovun konsertlərində öz əksini tapır. Əsərlərin ifaçılıq keyfiyyətləri, instrumental ifaçılıq üslubu, parlaq, virtuozşəkilli musiqi mövzuları, lirik səhifələri, müasir bəstəkarlıq yazısının texniki ifadə vasitələrindən istifadə olduqca diqqətəlayiqdir.

N.Məmmədovun konsertlərində həm solo melodik xəttdə və həm də orkestr fakturasında milli musiqi xüsusiyyətləri ilə bağlılıq özünü büruzə verir. Fortepiano partiyasında oxunaqlı, lirik mahnıvari üslublu melodik xətt aparıcı əhəmiyyət kəsb edir, kadensiya bölmələrində muğamvari ifadə tərzi öz əksini tapır. Orkestr fakturasında isə milli musiqi alətlərinin səslənmə xüsusiyyətlərini xatırladan ostinat tipli, müxtəlif interval tərkibli səsbirləşmələrindən ibarət quruluşa üstünlük verilir. Bu cəhət bir çox hallarda solistin partiyasına da sirayət edir.Bütün bunlar konsertlərin ümumi musiqi fikrinin inkişafında, alətin bədii-texniki imkanlarının ifadəsi baxımından öz həllini tapır.

N.Məmmədovun simfonik yaradıcılığında birhissəli proqramlı əsərlər maraqlı xüsusiyyətlərə malikdir. Simfonik poema janrının məzmun xüsusiyyətləri onun forma və quruluşunu da müəyyənləşdirir. Bu baxımdan birhissəli formanın imkanları daxilində bəstəkar dramaturgiyanı elə qurur ki, burada obrazlar və onların daxili aləmi, əhatə olunduğu mühit, ən əsası yüksək etik hissləri öz ifadəsini tapır. Bu baxımdan bəstəkarın simfonik poema janrına müraciəti onun fərdi xüsusiyyətləri, proqramlı məzmunun xarakteri ilə bağlıdır. N.Məmmədov öz əsərini "Dramatik poema" adlandırmaqla, musiqinin proqramını, obrazlı məzmununu, xarakterini açıqlamışdır. N.Məmmədovun simfonik poeması böyük simfonik orkestr üçün yazılmışdır. Əsər simfonik poema üçün ənənəvi olan sonata formasında yazılmışdır. Simfonik poemanın diqqətəlayiq cəhətlərindən biri mövzuların variantlı və variasiyalı inkişaf

etdirilməsidir. Həmçinin mövzuların inkişafında dalğavari, yüksələn-enən hərəkət xətti, mərhələli xüsusiyyətlər özünü göstərir [4; 9].

**Dissertasiyanın III fəsli – "N.Məmmədovun musiqili-səhnə və vokal-instrumental əsərləri" adlanır və iki paraqrafdan ibarətdir. Birinci paraqrafda – 3.1.N.Məmmədovun "Humay" baleti təhlil olunur.**

N.Məmmədovun musiqi irsində "Humay" baleti xüsusi yer tutur. "Humay" baletinin yaranması Azərbaycan balet sənətinin inkişafı ilə şərtlənmiş və bu janrın klassik ənənələrinə əsaslanaraq, onları yeni şəraitdə davam etdirmişdir.

Bu balet böyük Azərbaycan şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında yazılmışdır. N.Məmmədovun "Humay" baletinin librettosu ilə S.Vurğunun poeması arasında bir sıra fərqlər özünü göstərir. Bəstəkar və libretto müəllifləri baletdə poemanın süjet xəttinin ardıcıl açılmasını qarşılarına bir məqsəd olaraq qoymayıblar. Burada ictimai dramın fonunda lirik xətt inkişaf etdirilir. Əsas obrazlar masştablı və ümumiləşdirilmiş şəkildə təqdim olunur. Əsərin qəhrəmanları – sevgisinə sədaqətli gözəl Humay, şair qəlbli Cəlal, komsomolçu dəstəsinin başçısı cəsur Bəxtiyar və hakimiyyətin düşməninə çevrilmiş qəddar Gəray bəy kəskin fəaciəvi konfliktdə qarşılaşdırılır.

Baletdə hər bir şəkil proqramlı başlığa və obrazlı məzmuna malikdir, eyni zamanda, balet müstəqil musiqi nömrələrinə bölünür. Bununla belə bunlar vahid inkişafın mərhələlərinə çevrilir və simfonik inkişaf xəttini davam etdirərək, səhnə hadisələrinin bütün məqamlarını əks etdirir: Proloq – "Məhəbbət himni"; Birinci pərdə, I şəkil – "Kənd"; II şəkil – "Gözəllik və məhəbbət"; İkinci pərdə, III şəkil – "Novruz bayramı"; IV şəkil – "Qan çanağı"; Üçüncü pərdə, V şəkil - "İntizar"; VI şəkil – "Gəray bəyin ölümü".

Baletin musiqi dramaturgiyası təzadlı xətlərin kəsişməsinə, ziddiyyətli mühitlərin qarşıdurmasına əsaslanır: bunlardan birincisi – ictimai dramatik mühitdə verilmiş lirik məhəbbət xəttidir, ikincisi – qəddar gərginlik yaradan Gəray bəy obrazı ilə bağlı mühiti, üçüncüsü isə xalq məişət mühiti ilə bağlıdır. Bunlardan hər biri özünəməxsus intonasiya quruluşuna, metro-ritmik xüsusiyyətlərə malikdir.

Musiqi dramaturgiyasında leytmotivlər mühüm rol oynayır. Əsas leytmotivləri aşağıdakı kimi səciyyələndirmək olar: Məhəbbət leytmotivi. Əsərdə iki məhəbbət leytmotivi verilir, bunlardan biri incə, xəyalpərvər mövzu, digəri isə ümidsiz sevgini ifadə edən mövzudur; Cəlalın leytmotivi; Gəray bəyin leytmotivi; Xalq üsyanı mövzusu; Rekviyemin mövzusu; Cəlalın poetik qəzəllərinin mövzusu.

Baletin əsas obrazları – Humay, Cəlal, Bəxtiyar, Gəray bəy hər biri müəyyən bir ideyanın daşıyıcısı olub, özünəməxsus musiqi və rəqs vasitəsilə səciyyələnir. Bu baxımdan hər bir obrazın əhatə dairəsi dramaturji əhəmiyyət kəsb edir. Qızların incə rəqsləri, gənc oğlanların coşğun oyunları milli xalq rəqslərinin intonasiyalarına əsaslanır. Quldurlar dəstəsinin təsvirində isə onların kobudluğunu xarakterizə edən qroteskli musiqidən istifadə olunmuşdur.

Baletin musiqisi dərin milli köklərə malik olub, musiqi dilinə və ifadə vasitələrinə görə müasir, simfonik vüsətlidir. Baletin müxtəlif səhnələrində Azərbaycan xalq melosunun və muğamların ifadə vasitələri obrazların xarakterizə olunmasında özünü qabarıq büruzə verir, bəzən isə müəyyən xatırlatmalar, şəkildəyişmələr kimi özünü göstərir. Bəstəkar xalq xoreoqrafiyasının janr xüsusiyyətlərindən həm lirik xarakterli rəqs səhnələrində, həm də gərgin dramatik səhnələrdə istifadə etmişdir [2; 10].

**Dissertasiyanın III fəslinin ikinci paraqrafı – 3.2. “N.Məmmədovun vokal-simfonik əsərləri” adlanır.**

Nəriman Məmmədovun Atif Zeynallının sözlərinə solistlər, xor və simfonik orkestr üçün “Azərbaycan” oratoriyası Vətənin möhtəşəm obrazını tərənnümünə həsr olunmuşdur. N.Məmmədovun vətən sevgisi, vətəndaşlıq mövqeyi bu əsərdə öz parlaq təzahürünü tapmışdır.

N.Məmmədovun “Azərbaycan” oratoriyası dörd hissədən ibarətdir. Onun daxilində klassik oratoriya janrına xas olan xüsusiyyətlər – ənənəvi hissələrin təzadlıq prinsipi ilə ardıcıllaşması özünü göstərir. Əsərin kompozisiya quruluşu həm musiqinin xarakteri və emosional təsiri, həm də musiqi dilinin xüsusiyyətləri – məqam-tonallıq, melodik və metroritmik cəhətlərinə görə fərqlənir. Lakin buna baxmayaraq, bunlar əsərin kompozisiyasının mütənasib

qurulmasında və ardıcıl olaraq məzmunun açılmasında mühüm rol oynayır. Oratoriyanın hissələrinin ardıcıllığı belədir: I hissə – Largo; II hissə – Allegretto; III hissə – Andante; IV hissə – Vivace. Oratoriyada xor və orkestr vəhdətdə, daimi dialoqda, homofon-harmonik fakturada, gah da polifonik üsullarla qarşılıqlı inkişafda verilərək, partituranın dolğun səslənməsinə xidmət edir.

N.Məmmədovun "Naxçıvan" vokal-instrumental süitası Azərbaycan xalq çalğı alətləri orkestri, solist və xor üçün nəzərdə tutulmuşdur. Süita İslam Səfərlinin sözlərinə bəstələnmişdir. Süitanın beş hissəli quruluşunda hissələr tempinə görə təzadlıq prinsipi üzrə ardıcıllaşır: I hissə – Allegretto moderato; II hissə – Allegretto; III hissə – Moderato; IV hissə – Allegro; V hissə – Allegretto. Süitanın hissələrinin musiqi materialı arasında kəskin kontrastlıq yoxdur, onlar əsasən lirik mahnı xarakterlidir, məzmununa görə isə vətənpərvərlik ruhundadır, vətənin gözəlliklərinin tərənnümünə həsr olunmuşdur. Süitanı Naxçıvan haqqında mahnılar silsiləsi kimi dəyərləndirmək olar.

N.Məmmədovun vokal-instrumental əsərlərinin səciyyəvi üslub cizgiləri vokal və instrumental hissələrə xas olan mahnıvarilikdən ibarətdir. Bundan əlavə, bütün vokal epizodlar xalq mahnıları ruhundadır [7].

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur.

N.Məmmədovun yaradıcılığının bütün mərhələlərində diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri onun əsərlərinin peşəkarlıq səviyyəsi ilə bağlıdır. Bu da bəstəkarın musiqi üslubunun formalaşmasını, bəstəkarlıq yazı texnikasına mükəmməl yiyələnməsini göstərir. Bəstəkara xas olan klassik təfəkkür tərzi və muğam ənənələrinin qovuşması musiqi dilinə emosional dolğunluq aşılayır.

N.Məmmədovun orkestr əsərlərində romantizm xüsusiyyətlərinin təzahürü ədəbi əsərlərə müraciətində özünü qabarıq nümayiş etdirir. Bu baxımdan Nizaminin, Hüseyn Cavidin, Səməd Vurğunun əsərlərinə müraciət diqqətəlayiqdir. Bu şairlərin əsərlərinin motivlərinin musiqidə konkret şəkildə təcəssümündən daha çox, adı çəkilən şairlərin yaradıcılığına, onların poetik dünyasına münasibətin, bu zəngin mənbədən ilhamlanan bəstəkarın lirik-dramatik düşüncələrinin əks olunduğunu qeyd etməliyik.

Bəstəkarın əsərlərindəki klassik ənənələr özünü aydın təfəkkür və ifadə tərzində, dəqiq ölçülüb-biçilmiş formalarda büruzə verir. N.Məmmədov klassik quruluşa əsaslanaraq, onların imkanları çərçivəsində bədii məzmuna uyğunlaşdırır. Bununla belə, ənənəvi forma daxilində yeniliklərə can atması, simfonik silsilənin quruluşunda, sonata forması daxilində variasiya formasının xüsusiyyətlərindən istifadə etməsi onun musiqi dilinin əsas cəhətlərindən biridir.

N.Məmmədovun musiqi dilinin daha bir cəhəti musiqi ifadə vasitələrindən qənaətcilliklə istifadə etməsi ilə bağlıdır. Bəstəkar çox zaman kiçik intonasiya özəyinin daxili potensialını məqam, faktura, metroritmika, tembr cəhətdən inkişaf etdirərək, bitkin musiqi lövhəsi yaradır. Bəstəkarın üslubuna xas olan bu cəhətin dərin köklərinin muğam ənənələrilə bağlı olduğunu qeyd etməliyik.

N.Məmmədovun musiqi dilinin diqqətəlayiq xüsusiyyətlərindən biri də orkestrləmə sahəsindəki nailiyyətləri ilə bağlıdır. Orkestr vasitələrindən istifadədə N.Məmmədov müxtəlif tərkibli orkestrlərdən çox səmərəli istifadə edir. O, xüsusi orkestr effektlərinə, qeyri-adi tembrlərə deyil, daha çox klassik ənənələrə arxalanaraq, özünəməxsus yeniliklərini həyata keçirir. Digər musiqi vasitələrində olduğu kimi, orkestr dilində də bəstəkar mövcud ənənələrdən bəhrələnərək, eyni zamanda, hər bir əsərin məzmunu və obrazlar aləminin ifadəsi üçün orkestr vasitələrini seçməsi, tembr-dramaturji imkanlardan istifadə etməsi qeyd olunmalıdır.

Beləliklə, Nəriman Məmmədovun yaradıcılığında musiqi dilinin tədqiqi janr xüsusiyyətləri, mövzu dairəsi, forma və məzmunun əlaqələri, musiqi ifadə vasitələrinin – melodika, məqam, harmoniya, ritmika, orkestrləşdirmə və s. cəhətlərin araşdırılması, xalq və klassik musiqidən bəhrələnmə və bunun musiqi dilinə təsiri məsələləri baxımından aparılması, bəstəkarın yaradıcılığının ətraflı səciyyələndirilməsinə imkan vermişdir [8; 12].

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Qasımova, A.R. Nəriman Məmmədovun yaradıcılığında proqramlı simfonik əsərlər. // – Баку: Harmony. Международный музыкальный культурологический журнал. – 2014. № 13. с. 1-4.

2. Qasımova, A.R. Nəriman Məmmədovun “Humay” baleti. // – Bakı: Harmony. Международный музыкальный культурологический журнал. – 2015. № 14. с. 1-4.
3. Qasımova, A.R. Nəriman Məmmədovun yaradıcılıq yolunun mərhələləri. // – Bakı: Musiqi dünyası. – 2016, № 3/68. – s. 79-81.
4. Qasımova, A.R. Nəriman Məmmədovun simfonik yaradıcılığı. // – Bakı: Harmony. Международный музыкальный культурологический журнал. – 2016. № 15. с. 1-4.
5. Гасимова, А.Р. Национальные истоки творчества Наримана Мамедова. // – Пятигорск: Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы IV Международной научно-практической конференции. 22-23 сентября 2016 года. – 2016. – с. 221-224
6. Гасимова, А.Р. Творчество композитора Наримана Мамедова. // – Казахстан: Поиск. Международный научный журнал. – 2016. № 4. – с. 81-83.
7. Qasımova, A.R. Nəriman Məmmədovun musiqi əsərlərinin janr və üslub xüsusiyyətləri. // – Bakı: Musiqi dünyası. – 2018. № 1/74. – s. 72-74.
8. Qasımova, A.R. Bəstəkar Nəriman Məmmədovun yaradıcılığında musiqi dilinin əsas cəhətləri. // – Bakı: Müasir Azərbaycan bəstəkarı və zaman. Doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransının materialları və elmi məqalələr toplusu. 11-12 aprel 2019-cu il. – Bakı: Mütərcim. – 2019. – s.165-171.
9. Qasimova, A.R. Features of musical language in the symphonic creativity of composer Nariman Mammadov. // – Ukraina: Актуальні питання гуманітарних наук. Вип 30, том 1. – Дрогобич: Гельветика. – 2020, с. 79-85.
10. Qasımova, A.R. Nəriman Məmmədovun yaradıcılığında milli xüsusiyyətlərin tədqiqi məsələləri. // – Bakı: Bəstəkar və zaman. Respublika elmi konfransının materialları və elmi məqalələr toplusu. 20-21 aprel 2021-ci il. – Bakı: Mütərcim. – 2021. – s.141-149.
11. Гасимова, А.Р. Роль композитора Наримана Мамедова в записи азербайджанских мугамов // – Киев: Концептуальны

проблеми розвитку филологичних наук у сучасному поликультурному простори. Материали Международной науково-практичной конференции 18-19 апрель 2021 года. Таврийский Национальный Университет имени В.И.Вернадского. – 2021. –Гельветика. с. 117-120.

12. Qasımova, A.R. Nəriman Məmmədov yaradıcılığının üslub xüsusiyyətləri. // – Naxçıvan: Axtarışlar. AMEA-nın Naxçıvan bölməsi. cild 15. – 2021, №1 (39). s. 203-207.
13. Qasımova, A.R. Bəstəkar Nəriman Məmmədovun etnomusiqişünaslıq üzrə fəaliyyəti. // – Naxçıvan: Axtarışlar. AMEA-nın Naxçıvan bölməsi. cild 15. – 2021, №2 (40). s. 243-249.

The defense will be held on 20 september 2023 at 14^00 at the meeting of the Dissertation council FD 2.36 of Supreme Attestation Comission under the President of the Republic of Azerbaijan operating at the Baku Music Academy named after Uzeyir Hajibeyli.

Address: AZ 1014, Baku, Sh.Badalbeyli street 98.

Dissertation is accessible at the Baku Music Academy named after Uzeyir Hajibeyli Library.

Electronic version of the dissertation and its abstract are available on the official website of the Baku Music Academy named after Uzeyir Hajibeyli.

Abstract was sent to the required addresses on 24 June 2023.

Çapa imzalanıb: 24.05.2023.

Kağızın formatı: 60x84 1/16

Həcm: 38441 işarə

Tiraj: 100